UOT: 008; UOT 94

MEHPARƏ TAJDEHİBONAB
Azərbaycan Dillər Universiteti
Qərb ölkələri üzrə Regionşünaslıq kafedrasının müəllimi
m.tajdehibonab@gmail.com

POLŞADA İNTİBAH DÖVRÜ MƏDƏNİYYƏTİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/9-14

Polşada, daha sonra Litva, Belarus və Ukrayna torpaqlarının da daxil olduğu Reç Pospolitada İntibah dövrü ölkənin mədəniyyət tarixində, "qızıl dövr" kimi adlandırılır. İtaliya ilə sıx əlaqələr sayəsində Polşa olduqca erkən (XV əsrin ortalarından) güclü, yeni, mədəni impulsu hiss etməyə başladı. Macar-xorvat mədəni və siyasi dairələri vasitəsilə Polşaya nüfuz edən italyan mədəni oriyentasiyası Polşaya yeni mədəniyyət növünü digər Mərkəzi Avropa ölkələrinə nisbətən daha adekvat qavramağa imkan verdi. Əlbəttə ki, bu da Polşa İntibah mədəniyyətinin çiçəklənməsinə töhfə verdi. İntibah dövrü Polşa mədəniyyəti milli mədəniyyətin sonrakı çoxəsrlik inkişafı üçün əsas oldu, gələcək nəsillərin orientasiyasına xidmət edən davamlı, dəyişməz nümunələr yaratdı. Əlbəttə ki, burada italyan mədəniyyəti, XV əsrin ortalarında Polşa mədəniyyətinin özündə də yüksəlişin olması, yeniliyə açıq olması ilə kök sala bildi. XIV-XV əsrlərdə Polşanın tarixi inkişafı ilə sıx bağlı olduğu çex və alman mədəniyyətlərinin ən güclü təsiri, son qotik tipli mədəniyyət sferasında qaldı. Bu məqalədə Polşaya nüfuz edən italyan mədəni ariyentasiyası haqqında geniş şəkildə bəhs olunur.

Açar sözlər: İntibah mədəniyyəti, italyan memarlar, Polşa mədəniyyəti.

Giriş. İntibah Qərbi və Mərkəzi Avropa ölkələrinin sosial-mədəni inkişafında özünəməxsus bir dövrdür. İntibah dövrünün klassik ölkəsi XIV-XVI əsrlərin İtaliyası idi, digər ölkələrdə isə oxşar proseslər sonradan başladı. "Renessans" terminin özü o dövrdə antik mədəniyyəti canlandırmaq, ona yenidən qayıtmaqla bağlıdır. Lakin sonra gördüyümüz kimi, bu təkcə geri dönüşlə kifayətlənmədi. İnsanlığın arxasında orta əsrlərin təcrübəsi vardı və nə qədər İntibah dövrünün sənətkarları onu tənqid etsələr də o, tamamilə yeni tendensiyalarla birləşərək yenidən canlanan antik mədəniyyətə unikal xüsusiyyətlər bəxş etdi. Orta əsrlərin çöküşü, o cümlədən mədəniyyətdə baş verən proseslər isə ilk növbədə özünü yeni iqtisadi münasibətlərin formalaşmasında göstərirdi. Bunu erkən kapitalizm kimi xarakterizə etmək olar. Bütün bunlarla əlaqədar olaraq, cəmiyyətin sosial strukturu mürəkkəbləşir ki, bu da yeni mədəni ehtiyaclara, mədəniyyət yaradıcılığında yeni prinsiplərə və bununla da yeni mədəniyyətə gətirib çıxarırdı [5, s.7].

Bütün İntibah dövrü üçün ümumi olan mədəni yaradıcılıq prinsipi humanizm prinsipinə çevrildi, yəni insana, onun maraqlarına və ehtiyaclarına yönəldi. Humanizmin əsaslandırılması və parlaq ifadəsi Piko della Mirondolanın (1463-1494) "İnsan ləyaqəti haqqında" məşhur çıxışında verilmişdir: "Rəbb insanı yaradıcı qanunları bilməsi, kainatın gözəlliyini sevməsi və onun böyüklüyünə heyran olması üçün bütün digər yaratdıqlarından sonra yaratdı [2, s.77].

Polşa İntibahının xüsusiyyətləri. İntibah dövrü Polşa mədəniyyəti aydın sosial təbəqələşmə ilə xarakterizə olunurdu. XVI əsrin birinci yarısının İntibah mədəniyyətinin əsas mərkəzləri kral sarayları idi, bu xüsusən səxavətli himayədarlar, humanist üslubun pərəstişkarları - I Qoca Sigizmund və II Avqustun dövrünə təsadüf edirdi [9].

XIV əsrin sonlarında Yagellon sülaləsinin hakimiyyəti altında Polşanın Litva ilə birləşməsi ərazi baxımından böyük və daxili quruluşa görə mürəkkəb bir dövlət yaratdı. Polşanın özündə knyazlıq xarakteri daşıyan torpaqlar vardı və Litvaya isə torpaqlarının və mədəniyyətlərinin öz siyasi təşkilatları olan litvalılar, belaruslar və ukraynalılar daxil idi. Bununla bərabər Polşada krallar tərəfindən dəstəklənən iri feodallarla zadəganlar arasında mübarizə getdikcə güclənirdi.

1410-cu ildə Qrünvald yaxınlığında ağır zərbə alan səlibçilərlə mübarizə güclənir. Lakin onlar tamamilə məğlub olmadı, bu isə bütün XV əsr boyu Polşa xalqının qurbanlar verməsinə səbəb oldu [10].

Polşadakı dirçəliş incəsənətdə humanizm ideyalarının əksi idi. Bu fikirlər, memarlıqda ifadəsini tapmamışdan əvvəl, XV əsrin sonlarında Polşa alimlərinin əsərlərində öz əksini tapmışdır. Onların arasında XVI əsrin əvvəllərində Polşa kralı olmuş gənc Sigizmundun müəllimi, italyan Buonakorsi Kallimah mühüm rol oynamışdır. Sigizmundun Buda şəhərində əmisi - Macarıstan kralının sarayında qalması İntibahın formalarının Polşaya köçürülməsi üçün böyük əhəmiyyət kəsb edirdi [10].

XVI əsr Polşa üçün dünyəvi, humanist mədəniyyətin çiçəklənmə dövrü idi və Polşada onun ilk nümunələri əsrin əvvəllərində italyan memarlar tərəfindən yaradılmış İntibah memarlığına uyğun gəlirdi. Lakin bu maqnatların, zadəganların və şəhər əhalisinin binalarında Polşa son qotikasının artıq XV əsrdə yaranan yeni dünyagörüşü, ictimai əlaqələr, məişət həyat tərzini əks etdirən formaları ilə birlikdə geniş istifadə olunurdu [11].

İntibah dövrünün yeni cərəyanları Polşaya tez daxil oldu, onun daşıyıcıları, əsasən, italyan, fransız və alman universitetlərində təhsil alan gənclər idi. Poznanda yepiskop Yan Lyubranski tərəfindən əsası qoyulmuş orta məktəb Polşada ilk dəfə olaraq intibah dövrünün cərəyanlarına uyğun olaraq yeni tərbiyə proqramını tətbiq etdi. XVI əsrin ikinci yarısında yaranmış müxtəlif konfessiyalara (Pinçov, Krakov, Leşno, Rakov, Qdansk) məxsus bir çox gimnaziyalar şagirdlərini bu ruhda tərbiyə edirdilər. Dünya haqqında biliklər verən və əvvəllər ancaq ruhani və alimlərin məhdud dairəsinin tələbatına xidmət edən kitablar, indi daha çox yayılmağa başlamışdı.

Dini və elmi kitablarla yanaşı, hüquqi aktlar, seymin sənədləri və qanunları, həmçinin, məlumat kitabçaları nəşr olunurdu. Sigizmund Avqust tərəfindən təşkil olunmuş Yagellonlar dövlətini Qərbi Avropa ilə bağlayan daimi poçt da informasıya mübadiləsinə xidmət edirdi [1, s.101].

Polyaklar çox ifadəli də olsa klassik ritorik fiqurlara üstünlük verirdilər. Polşa İntibah mədəniyyətində yas yalnız son dərəcə geniş yayılmış məzar daşları janrında özünü göstərirdi. Ümumilikdə katolik mədəniyyətinə xas olan ölüm kultu Polşa qəbirüstü abidələrində mərhumun vurğulanmış sosial təsviri, şəxsi portreti və xristian nikbinliyi ilə birləşdirilib. Buna görə də, I Sigizmundun məzar daşı üçün yaradılmış sxemə əsaslanan Polşa məzar daşlarından keçici həyat üçün ümidsizlik və kədər deyil, əbədi sevincin sakit gözləntisi göstərilir [9].

Vətəndaş hüquqları və nikahlar. Krakova böyük italyan immiqrasiya axını 1518-ci ildə I Sigizmundun Milan hersoqu Gian Galeazzo Sforzanın qızı italyan şahzadəsi Bona Sforza d'Araqon ilə evlənməsi ilə əlaqələndirilir. O, evliliyindən əvvəl anası İzabella Araqonskayanın Neapolda yerləşən iqamətgahında yaşayırdı.

Toy dəstəsi ümumilikdə 287 nəfərdən, o cümlədən 92 atlıdan ibarət idi. Onların bir çoxu daha sonra Krakovda məskunlaşaraq I Sigizmund kral sarayında, daha sonra isə Sigizmund Avqustun sarayında müxtəlif vəzifələr tutdular.

Ümumiyyətlə, XVI əsrin ortalarında sarayda 180-ə yaxın italyan var idi, onlar məhkəmə iyerarxiyasında katiblər, uşaq tərbiyəçiləri və ya kapellanlar (aristokratlardan və kilsə iyerarxlarından ibarət saray ibadətgahına mənsub din xadimi, sonralar XVII əsrə qədər kilsə vəzifələrini katib vəzifəsi ilə birləşdirən "məişət" keşişi) kimi daimi xidmətə qəbul edilərək sarayda mühüm rol oynayırdılar. Onların arasında, daha sonra İtaliyaya qayıdan humanist və şair Nikkolo Antonio Karminyano da var idi [4, s.15]. Çoxsaylı saray peşələri arasında italyanlar at ustaları, əczaçılar, həkimlər və aşpazlar kimi geniş şəkildə təmsil olunurdular. 1540-cı illərdə "Rorantistlər" saray xoru yaradıldı, onun tərkibinə bir neçə italyan müğənnisi - Giorgio, Erazmo, Volpo, Kristoforo, Cuseppe, Aniloni və Covanni daxil oldu. Onlar 20-80 florinə qədər kral təqaüdü alırdılar, onların bir çoxu, Cano (Gianni) Balli kimi, kral saray musiqiçisi adına layiq görüldülər. Bundan əlavə, Balli musiqili kapella yaratdı və Krakov vətəndaşı hüquqlarına sahib oldu [4,s.15].

Polyak dilində bədii ədəbiyyat inkişaf edirdi. Mikolay Rey polyak və latın dillərində yazan görkəmli şair Yan Koxanovski ilə yanaşı polyak ədəbi dilinin atası hesab olunur. Latın dilində ədəbiyyat həm də Avropanın qalan hissəsi üçün polyaklığın təmsilçisi kimi xidmət edirdi. Lakin belə bir linqvistik vəziyyət polyak dilinin özünün formalarının təkmilləşməsinə mane olmadı ki, bunu slavyan İntibahının ən böyük şairi, insanın emosional dünyasını latın dili ilə eyni səviyyədə əks etdirmək bacarığına malik olan Y.Koxanovskidə görmək olardı [9].

Şlyaxta kimi meşşanlar da kostellərdə möhtəşəm kitabələr, qəbirüstü abidələr salırdılar. İntibah dövrünün əlamətlərinə uyğun olaraq qəbirüstü heykəltəraşlıq vəfat edənin simasını realistcəsinə can-

landırır, onu yarı əyilmiş vəziyyətdə təsvir edirdi. Mədəniyyətdə və incəsənətdə yeni cərəyanları, başlıca olaraq kral sarayı yayırdı. İlk İntibah tikililəri I Sigizmundun sayəsində meydana gəlmişdi. Vaveldə kafedral kilsənin nəzdindəki kapella, xüsusilə məşhur idi. Sigizmund Avqust gözəl kitabxana yaratmışdı. O, heykəltəraşlıq əsərləri, rəsmlər və zinət əşyalarından kolleksiya toplayırdı [1, s.103].

Kral sarayında italyanlar. Kral sarayında Veronadan olan, Krakovda saray kapellasını yaradan görkəmli şəxsiyyət Alessandro Pezenti idi. Onun vəzifələrinə İtaliyadan musiqiçilərin seçilməsi və işə cəlb edilməsi, həmçinin, kraliçanın müxtəlif əmrlərinin icrası daxil idi. Onun vasitəçiliyi ilə Veronadan olan zadəgan, oymaçı, zərgər və sikkə zərbçisi, əvvəllər kardinal İppolito II d'Este nin sarayında musiqiçi kimi fəaliyyət göstərmiş Covanni Cakomo Karalio (təxminən 1500-1565) Krakov kral sarayına qəbul edildi. Karalio Polşada zadəganlıq titulunun tanınması üçün İmperator V Karlın sarayında Polşa səfiri Yan (İohann) Dantiskusa (Dantişek) müraciət etdi. 1552-ci ildə Kral I Sigizmund ona Qızıl Cəngavər titulu verdi və onun italyan saray nəsli gerbini tanıdı [4, s.16].

Yüksək vəzifələrdən birini Neapolitan aristokrat ailəsindən olan, musiqi və ədəbi təhsili olan və 1518-ci ildə Bona ilə birlikdə Polşaya gələn Kola Maria de Karis tuturdu. Sarayda baş aşpaz olmasına baxmayaraq, ona müxtəlif diplomatik missiyalar da həvalə olunmuşdu. O, kral tərəfindən cəngavər rütbəsinə layiq görüldü və Polşa zadəganlığı titulu və gerbi verildi [4, s.16].

Maraqlıdır ki, baxılan kral siyahılarında memarların adları çəkilmir. Sigizmund Avqust sarayındakı qırx əcnəbi arasında Polşalı tədqiqatçı Marek Ferenc on beş italyanı sayır - bunlar zərgərlər, bağbanlar və saray rəssamı - Yan Herman Monte Mariadır. Rəssamlar arasında D.Karalio, Sigizmund Avqust kral siyahılarında "Polşa Kralı Sigizmund Avqustun qiymətli daşlarının istehsalı üzrə əsas mütəxəssis" adlanır, yəni zərgər - xüsusi yer tutur, çünki onun zadəgan titulu kral tərəfindən təsdiq edilmişdir.

Krakovda italyan icması. Kralın çağırışını izləyən və Krakova gələn ilk italyan memarlar Florensiya ilə sıx əlaqəli idilər. Onların Polşaya səfərləri Macarıstandan keçmişdir ki, bu da Kral I Siqizmundun Macarıstanda şəxsi əlaqələrindən asılı idi. Eyni zamanda, XV əsrin ikinci yarısı - XVII əsrin əvvəllərində Polşa mədəniyyəti bəzi ənənəvi xüsusiyyətlərini qoruyub saxlamışdır. Xaricdən gələn yeniliklərin yerli köhnə ilə sintezi burada o qədər təbii oldu ki, bu, yerli mədəniyyətdə təbəqələşməyə səbəb olmadı [9].

Polşada 1520-ci ildən əvvəl bölgələrarası ilk immiqrantlar dalğası yarandı. 1518-ci ildən Silezia həm stilistik həm də sənədləşdirilmiş olan komaskaların fəaliyyət sahəsinin ilk məkanına çevrildi: portalların memarlıq dizaynı və "Sileziya tipi" buna nümunə ola bilər. Qeyd etmək lazımdır ki, bütün tikinti sənayesində italyanlar üstünlük təşkil edirdilər. XVI əsrin sonlarında Debnikdən gətirilən Polşa qara mərməri Macarıstan qırmızı mərmərini əvəz etdi, lakin tədbirli italyanlar burada da olduqca bacarıqlı olduqlarını sübut etdilər - Debnikdəki karxananın rəhbəri italyan oldu. Digər bir həmyerlisi Krakov yaxınlığında yerləşən kaşı məhsulları fabrikini idarə etməyə çalışsa da Polşada italyan kaşısına kifayət qədər yüksək tələbat olmadığından və ya keyfiyyətsiz olması səbəbindən bu ona gözlənilən qazancı gətirmədi [4, s.14].

Krakov Polşada İntibah mədəniyyətinin mərkəzinə çevrilərək əyalət paytaxtı rolunu oynayırdı. Ölkənin şərq hissəsində (Litva, Belarus və Ukrayna) pravoslav əhali arasında kilsə slavyan mədəniyyəti üstünlük təşkil edirdi, eyni zamanda bu ərazidə katolik mədəniyyəti ilə intensiv konfessional, siyasi və mədəni dialoqa girirdi. Bununla belə, dini qarşıdurma qarşılıqlı mədəni təsirlə müşayiət olunurdu. Əyalətlərdə məktəbləri və mətbəələri olan çoxsaylı reformasiya mərkəzlərinin yaranması mədəni həyatın mərkəzdən uzaqlaşmasına kömək etdi [9].

Montelupi, Karl və Bernardo Soderini ilə birlikdə kralın Florensiya ilə ticarət etmək üçün verdiyi müstəsna hüquqa sahib idi. Florensiya, Venesiya, Genuya, Frankfurt və Nürnberq ilə ticarət əlaqələri də Quççi ailəsi, xüsusən də Krakovda yaşayan Florensiyalı Qaspare Quççi tərəfindən davam etdirilirdi. Demək olar ki, bütün ərzaq ticarəti, tekstil kimi dəbdəbəli malların ticarəti də italyanların əlində idi. Krakov bütün Polşanın ən mühüm ticarət mərkəzi idi [4, s.17].

İtalyan ailələrinin şəhər sosial iyerarxiyasının ən yüksək pilləsində olması, xüsusən də şəhər şurasında onlara tez-tez nümayəndəlik və təmsilçilik funksiyalarının həvalə edilməsi faktı ilə təsdiqlənir. Beləliklə, bütün XVII əsr ərzində 18 italyan bu mükafata layiq görülmüşdür. 1581-ci ildə tacir Covanni Battista Fontanini Krakov burqomistri seçildi. 1640-cı ildə Krakova gələn İeronimus Pinoç-

çi gəlişindən beş il sonra şəhərin burqomistri və kral katibi oldu. Polşa aristokratları kimi, nəcib italyanlar da Köhnə Bazarda "kiçik saraylar" adlanan nümayəndəlik evlərində yaşayırdılar. İtalyan ailələri də şəhərin digər yerlərində, lakin daha çox Krakov yaxınlığında yerləşən Kazimej şəhərində mülkə malik idilər [4, s.18].

İtalyanların Polşa cəmiyyətinə inteqrasiyası. Saray nümunəsinə uyğun olaraq, məzar ibadətgahları kafedral və kollegial, bəzən isə kilsələrdə tikilirdi. Ümumi tərkibin oxşarlığına baxmayaraq, onlar forma və detalları baxımından müxtəlif idi. Ən yaxşı nümunələr Yepiskop Tomitskinin məzarı (1524-1530), Krakovda, Dominikan kilsəsində, Mişkovski (1581), Pultuskda yepiskop Noskovski (1554), Nepolomisedə Branitski kapellalarıdır. Sonuncu kapella, memar Santi Quççiyə xas olan fantastik detalları və manyerist formaları ilə məşhurdur [11].

İtalyanların Polşa cəmiyyətinə uğurlu inteqrasiyasının növbəti əlaməti vətəndaş hüquqlarının və daşınmaz əmlakın əldə edilməsi olmuşdur. Eyni zamanda, daşınmaz əmlaka sahib olmaq, görünür, şəhər vətəndaşının hüquqlarını əldə etmək üçün zəruri şərt idi. Mənbələr, xüsusən, saray əczaçısı Marko Reveksla (yuxarıda adı çəkilən saray əyanı Battista Revekslanın qardaşı) ilə şəhər şurası arasında daşınmaz əmlakın alınması ilə bağlı yaranmış mübahisədən bəhs edir [4, s.18].

Sənədlərdə XVI əsrin ortalarından başlayaraq Krakovda yaşayan italyanların potensial maliyyə itkilərinin qarşısını almaq məqsədilə çox vaxt mülki hüquqlar üçün müraciət etməyə məcbur olduqlarına dair istinadlar var. Məsələn, Sebastiano Montelupi yalnız 1579-cu ildə mülki hüquqlar əldə etdi, baxmayaraq ki, o vaxta qədər o, artıq əsrin dörddə birini bu şəhərdə yaşamışdı. Əksər hallarda İtaliyadan gələn bir çox memar və sənətkar üçün Polşa şəhərlərinin mülki hüquqlarını əldə etmək həyati zərurət idi [4, s.19].

Çini Polşaya italyan köçünün ikinci dalğası ilə gəlmişdi, bəzi mənbələrə görə, özü kimi Toskanadan olan sənətkarları da gətirmişdi. Onların əsərləri açıq-aşkar "italyan" xarakteri daşıyırdı, bunun parlaq nümunələri, xüsusən də Vladislav Yaqello ibadətgahının relyefləri və ya Kafedralın orta nefindəki məzar daşının örtüyüdür [4, s.22].

Çini həm də Padovano ləqəbli heykəltəraş Covanni Moskanın ortağı idi. Onlar birlikdə 1545-ci ildə vəfat edən Habsburq şahzadəsi və Sigizmund Avqustun həyat yoldaşı Kraliça Yelizavetanın (Vilnada Müqəddəs Anna kilsəsi) məzar daşı abidəsini inşa etdilər. Bu iş üçün müqavilə 1546-cı il yanvarın 9-da imzalanmışdır. Çininin 1539-cu ildə vəfat etmiş Poznan yepiskopu Stanislav Oleşnitskinin məzar daşı abidəsinin yaradılmasında iştirakı da sənədləşdirilmişdir. 23 iyul 1543-cü ildə Çinin həyat yoldaşı mərmər abidənin ayrı-ayrı hissələrinin Krakovdan Poznana daşınmasını təşkil etdi. Eyni zamanda, qadının işçi kimi çalışmasında təəccüblü heç nə yox idi. İntibah dövrünün tarixində sənətkarların həyat yoldaşlarının ərlərinə iş görməkdə kömək etdikləri halları məlumdur [4, s.23].

Qeyd etdiyimiz kimi Çininin yoldaşı Padovano adlanan Covanni Maria Moska idi. O, İtalyan mühacirətinin növbəti dalğasına mənsub idi və adından da göründüyü kimi, Padua əsilli idi. Padua Universiteti Krakov aristokrat elitası üçün sevimli təhsil ocağı idi, ona görə də bir çox digər italyanlar kimi Moska da müştəriləri ilə ünsiyyət qurmaqda çətinlik çəkmirdi. Paduada onun, bir qrup usta ilə birlikdə daimi işi var idi, lakin onu Krakova aparan kral kapellasının tikintisində iştirak etmək daha cazibədar görünürdü. 1532-ci ildə Moska şəhərə gələndə tikinti işləri artıq başa çatmaq üzrə idi və bir il sonra, 1533-cü ildə kilsə artıq təhvil verildi. Buna baxmayaraq, onun, sifarişləri əksik olmadı - kral layihələrindən əlavə, zadəganlar və yüksək rütbəli ruhanilər üçün binaların tikintisində də iştirak etdi [4, s.23].

Nəticə. Həm Krakovdakı italyan emalatxanalarının yüksək məhsuldarlığı, həm də yeni emalatxanaların açılması ehtiyacı bu məhsullara böyük tələbatla bağlı idi. Müştərilərin istəkləri italyan emalatxanalarında formalaşan ənənəyə xas olan yeni sənət əsərlərinin, xüsusən də dəbdəbəli italyan üslubunda, məsələn, zirehdə və hərbi simvol elementləri olan qəbir daşlarının yaradılmasını tələb edirdi. Bu yanaşma fərdi bədii fikirlər üçün demək olar ki, yer qoymurdu. Bu "yeni zövqün" geniş yayılması sənətin qavranılmasının özəlliyi və ya müştərilərin xüsusi üstünlükləri ilə deyil, hər şeydən əvvəl dəb, iddialılıq və yeniliyə yüksək tələbatla bağlı idi. Müştərinin bu münasibəti əsasən sənət əsərləri arasındakı keyfiyyət fərqlərini, eləcə də, onların üslubunun aşkar konservatizmini izah edirdi.

Çini, Padovano, Kanavezi və Quççi nümunələrindən göründüyü kimi, italyanların Polşadakı fəaliyyəti, layihələrin birgə həyata keçirilməsi və müxtəlif növ sifarişlərin icrasında kollegial dəstək

ilə xarakterizə olunan aydın şəkildə tənzimlənən təşkilati formalara malik idi. İşlərin yaradılması prosesi də müəyyən bir sxemə uyğun olaraq həyata keçirilirdi: emalatxanalarda ayrı-ayrı seqmentlər hazırlanır, sonra quraşdırma yerində vahid bir bütövlükdə yığılırdı.

ƏDƏBİYYAT

1. Dıbkovskaya A., Jarın M., Jarın Y. Polşa tarixi. Ən qədim zamanlardan bu günlərimizədək / Tərc.: Məmmədov H. Bakı - 2010. – 378 s.
2. Буркхардт Я. Культура Италии в эпоху Возрождения. М.: Интрада, 2001. –544 с.
3. Гнедич П.П. История искусств. Итальянский Ренессанс. Москва, Эксмо, 2005. –144 с.
4. Дмитриева М. Италия в Сарматии. Пути Ренессанса в Восточной Европе. Москва, 2015. – 424 с.
5. Круглова Л. К. Культура эпохи Возрождения: учебное пособие по курсу «Культурология». СПб.: СПГУВК, 2002. – 81 с.
6. Марасанова В.М., Иерусалимский Ю. Ю. и др. /История культуры России: учебно-методический комплекс модуля (дисциплины) для образовательных организаций высшего образования - Ярославль, «Индиго», 2024. – 488 с.
7. Петрухинцев Н. 20 лекций по истории мировой культуры. М., 2001. – 400 с.
8. Садохин А., Грушевицкая Т. Мировая художественная культура. М.: ЮНИТИ, 2000. –588с.
9. Культура эпохи Возрождения в Западной и Центральной Европе / Своеобразие польского Ренессанса https://maxbooks.ru/rencul/rensan136.htm [27.11.2025].
10. Архитектурная классика / Totalarch / Архитектура Польши эпохи Возрождения. - https://classic.totalarch.com/renessans/poland [27.11.2025].
11. Архитектурная классика / Totalarch / Архитектура Польши XVI в. - https://classic.totalarch.com/renessans/poland/xvi [27.11.2025].

МЕХПАРА ТАЖДЕХИБОНАБ
Азербайджанский университет языков
Преподаватель кафедры региональных исследований западных стран

КУЛЬТУРА ЭПОХИ ВОЗРОЖДЕНИЯ В ПОЛЬШЕ

В Польше, а позднее в Речи Посполитой, включавшей также земли Литвы, Беларуси и Украины, эпоху Возрождения называют «золотым веком» в культурной истории страны. Благодаря тесным связям с Италией Польша довольно рано (с середины XV века) начала ощущать мощный новый культурный импульс. Итальянская культурная ориентация, проникавшая в Польшу через венгерско-хорватские культурные и политические круги, позволила Польше воспринять новый тип культуры более адекватно, чем другим странам Центральной Европы, и это, безусловно, способствовало расцвету польской культуры Возрождения. Польская культура эпохи Возрождения стала основой для последующего многовекового развития национальной культуры, создав устойчивые, неизменные образцы, служившие ориентиром для последующих поколений.

Конечно, итальянская культура смогла укорениться здесь благодаря тому, что в середине XV века сама польская культура также находилась на подъёме, её открытости инновациям. Наибольшее влияние чешской и немецкой культур, с которыми историческое развитие Польши было тесно связано в XIV–XV веках, сохранялось в сфере культуры позднеготического типа. В данной статье рассматривается проникновение в Польшу итальянской культурной ориентации.

Ключевые слова: Культура эпохи Возрождения, итальянские архитекторы, Польская культура.

MEHPARA TAJDEHIBONAB
Azerbaijan University of Languages,
Lecturer of the Department of Regional Studies of Western Countries

RENAISSANCE CULTURE IN POLAND

In Poland, and later in the Polish-Lithuanian Commonwealth, which also included the lands of Lithuania, Belarus and Ukraine, the Renaissance is called the "golden age" in the cultural history of the country. Thanks to close ties with Italy, Poland began to feel a powerful new cultural impulse quite early (from the middle of the 15th century).

The Italian cultural orientation that penetrated Poland through the Hungarian-Croatian cultural and political circles allowed Poland to perceive the new type of culture more adequately than other Central European countries, and this, of course, contributed to the flourishing of the Polish Renaissance culture. The Polish culture of the Renaissance became the basis for the subsequent centuries-old development of national culture, creating stable, unchanging patterns that served as a guide for subsequent generations.

Of course, Italian culture was able to take root here due to the fact that in the middle of the 15th century Polish culture itself was also on the rise, its openness to innovation. The strongest influence of Czech and German cultures, with which Poland's historical development was closely connected in the 14th-15th centuries, remained in the sphere of late Gothic-type culture. This article discusses in detail the Italian cultural orientation that penetrated Poland.

Keywords: Renaissance culture, Italian architects, Polish culture.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Sevdagül Əliyeva, t.ü.f.d. Məmmədağa Baxışov.